# Yüksək ehtiramın təcəssümü

Ölkəmizin xarici siyasəti artıq regionun hüdudlarından kənara çıxıb. Azərbaycan dünyada orta güc hesab edilən ölkələr kateqoriyasına daxil olub. Buna xüsusən Vətən müharibəsində və ötən ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirlərində əldə etdiyimiz zəfərlər nəticəsində ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməklə nail olmuşuq. Görünən odur ki, bu faktorlar dünya birliyinin etibarlı tərəfdaşı kimi öz mövqeyini möhkəmləndirən Azərbaycana olan etimadı daha da artırır.

→ 6

# Yüksək ehtiramın təcəssümü

"İlk öncə qeyd etmək lazımdır ki, Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən ikitərəfli görüşlər qarşı tərəfin müraciətləri və xahişləri ilə baş tutub. Bu, Azərbaycanın dünyada günbəgün artan nüfuzu və Prezident İlham Əliyevə olan qlobal ehtiramla əlaqədardır. Deməli, müstəqil şəkildə və inamla həyata keçirilən xarici siyasətimiz öz bəhrəsini verir".



Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Vüqar Bayramov deyib. Deputat bildirib ki, Azərbaycanın bu konfransda iştirakı ölkəmizin xarici siyasətinin qlobal xarakter daşıdığının göstəricisidir: "Münxen Təhlükəsizlik Konfransı Avropada keçirilən ən böyük tədbirlərdən biridir. Bu tədbir regionun, eləcə də dünyanın fərqli ölkələrinin liderlərini, iş adamlarını, eləcə də beyin mərkəzlərinin rəhbərlərini bir yerə toplayır. Azərbaycan Prezidentinin bu tədbirdə təmsil olunması ondan xəbər verir ki, bu, kifayət qədər nüfuzlu tədbirdir, həm də ölkəmiz Münxen Təhlüləsizlik Konfransına xüsusi önəm verir. Bu konfrans və keçirilən ikitərəfli görüşlər Azərbaycan həqiqətlərini bir daha təqdim etmək üçün yüksək platformadır. Prezident İlham Əliyev hər zaman olduğu kimi, bu dəfə də konfrans çərçivəsində önəmli bəyanatlar verib, Cənubi Qafqazla bağlı təşkil edilən müzakirələrdə Azərbaycanın mövqeyini geniş auditoriyaya təqdim edib".

Vüqar Bayramov ikitərəfli görüşlərin qarşı tərəfin istəyi ilə baş tutmasını belə izah edib: "Ölkəmizin xarici siyasəti artıq regionun hüdudlarından kənara çıxıb. Azərbaycan dünyada orta güc hesab edilən ölkələr kateqoriyasına daxil olub. Buna xüsusən Vətən müharibəsində və ötən ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirlərində əldə etdiyimiz zəfərlər nəticəsində ərazi bütövlüyümüzü və suverenliyimizi tam bərpa etməklə nail olmuşuq. Görünən odur ki, bu faktorlar dünya birliyinin etibarlı tərəfdaşı kimi öz mövqeyini möhkəmləndirən Azərbaycana olan etimadı daha da artırır".

Deputat onu da bildirib ki, ikitərəfli görüşlər yeni dövrdə Azərbaycana xarici sərmayənin cəlb edilməsi baxımından da vacibdir: "Azərbaycanın Avropa və qlobal iş dünyası ilə əlaqələrinin daha da inkişaf etdirilməsi aspektindən baxdıqda bu, olduqca əhəmiyyətli hadisədir. Nəzərə almaq lazımdır ki, Prezident İlham Əliyev andiçmə mərasimindəki çıxışında ölkəmizə xarici sərmayələrin cəlb edilməsinin əhəmiyyətini, texnologiya, innovasiya və eləcə də məşğulluq baxımından vacibliyini xüsusi qeyd etdi. Ona görə bu konfrans və görüşlər Azərbaycan üçün həm də ölkə iqtisadiyyatının təqdimatı, xarici investisiyaların cəlb edilməsi və Azərbaycanın aparıcı şirkətlərlə əlaqələrinin daha da gücləndirilməsi və sair baxımdan önəmli hesab olunur. Beləliklə, Münxen konfransı, eyni zamanda Prezidentin keçirdiyi görüşlər Azərbaycan iqtisadiyyatı üçün yeni imkanlar yaratmaqla yanaşı, həm də ölkə həqiqətlərinin bir daha təqdim edilməsinə birbaşa imkan yaradır".

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

azerbaijan-news.az

Azərbaycan.- 2024.- 18 fevral, № 37.- S.1, 6.